UOT 75

LƏMAN MƏMMƏDOVA*
MƏTANƏT MƏMMƏDOVA*

# XALÇALARDA ƏBƏDİLƏŞƏN RƏSSAM ÖMRÜ

*Azərbaycan incəsənəti dəryasında özünəməxsus yer tutan xalça sənəti xalqın milli sərvətidir. Xalça nəsillərdən-nəsillərə ötürülmüş, hər naxışı bir məna kəsb edən sənət əsəridir. Azərbaycanda xalça sənətinin bir elm kimi formalaşıb, inkişaf etdirilməsində dahi sənətkar, xalçaçı-rəssam Lətif Kərimovun misilsiz rolu olmuşdur. O, Azərbaycanın hər bir bölgəsini, dağını, aranını qarış-qarış gəzmiş, xalça ilə bağlı topladığı bütün məlumatları qələmə almış, xalça sənətinin bütün incəliklərinə, sirlərinə yiyələnmişdir. Ömrünü bu sənətə həsr etmiş sənətkar, neçə-neçə möhtəşəm əsərlərə öz imzasını atmışdır.*

**Açar sözlər:** *xalça, Lətif Kərimov, ornament, kompozisiya, naxış, xalq sənəti, xalçaçılıq, dekorativ motiv.*

Azərbaycan xalçaları bədii xüsusiyyətinə - kompozisiya zənginliyinə, naxış elementlərinin, ornament motivlərinin orijinallığına və nəfis koloritinə görə digər Şərq xalçalarından əsaslı surətdə fərqlənir. Xalçanın bədii xüsusiyyəti onun fakturası (səthinin xovlu, yaxud xovsuz olması), materialın xassəsi (yun, ipək, kətan, pambıq və s. ilə toxunması), ölçüsü, ornamentlərin kompozisiya quruluşu (həndəsi, stilizə edilmiş ornamentlər, nəbati və s. naxışların haşiyədə, göllərdə, arasahədə yerləşdirilməsi), haşiyə ilə arasahə arasında uyğunluq, rəng münasibətləri və s. ilə müəyyən edilir [1]. Unikal Azərbaycan xalçaları lokal intensiv tonların vəhdəti və əsrarəngiz parlaq koloriti ilə fərqlənir. Xalçaların ornamentləri də istehsal yerinə və növünə görə fərqlənir. Məsələn, “Quba”, “Qazax”, “Şirvan” xalçalarına mürəkkəb həndəsi naxışlar, heyvan və insan fiqurların sxematik təsvirləri; “Naxçıvan”, “Təbriz”, “Qarabağ” xalçalarına isə rəngarəng gül motivlərindən ibarət, özünəməxsus, zərif, parlaq koloriti ilə fərqlənən nəbati ornamentlər xasdır.

Xalçalarımızın bu kimi bir çox üslub xüsusiyyətlərinin araşdırıb üzə çıxarılmasında böyük alim və sənətkar Lətif Kərimovun misilsiz rolu olmuşdur.

Lətif Hüseyn oğlu Kərimov 1906-cı ildə Azərbaycanın mədəniyyət beşiyi olan Şuşa şəhərində doğulmuş, məhz Şuşada boya-başa çatmışdır. Şuşa Azərbaycanın ən səfalı, sıx meşəli, buz bulaqlı məkanıdır. Qoynunda neçə-neçə görkəmli sənətkarlar yetişdirən Şuşa məşhur müğənnilər Cabbar Qaryağdı oğlu, Bülbül, Rəşid Behbudov, şair-ədəbiyyatşünas, rəssam Mir Möhsün Nəvvabın vətəni olmuşdur. Peşəkar Azərbaycan musiqisinin banisi sayılan böyük bəstəkar Üzeyir Hacıbəyov da Şuşada yaşayıb yaratmış sənətkarlardandır. Lətif Kərimov üçün də Şuşa ilham mənbəyi olmuşdur. “Şuşa havamdır” deyən sənətkarın ürəyi hər zaman vətəni ilə döyünmüşdür. Şuşada təbiətin və mədəniyyətin münasibətləri bir-biri ilə üzvü sürətdə bağlıdır. Onlar sonralar rəssamın yaradıcılığında əksini taparaq, başqa janrlara, başqa növlərə və rəsmlərə çevrilmişdir [2].

Lətif Kərimovda təbii dünya ilə insan əllərilə yaradılmış dünya arasında tarazlıq hissi qeyri-adi dərəcədə inkişaf etmişdi. Bütün varlığı ilə həyatı dərk etməsində, Şuşada keçdiyi məktəbin böyük rolu var. Lətifin dünyanı dərk etməsi xalçanı dərk etməsi ilə yanaşı gedirdi. Lətif anasının toxuduğu xalçaya yaxınlaşıb xalçaya ilk ilməsini vuranda onun yəqin ki, on dörd yaşı olardı və artıq sənətin sehrinə düşmüşdü. Gördüyü hər gül, hər kəpənək onun təfəkküründə dəyişib naxışa çevrilir, xalça üzərində öz əksini tapırdı. Kim bilə-bilərdi ki, Lətifin xalçaya vurduğu bir düyün, gələcəkdə vuracağı minlərlə ilmənin ilk ürək döyüntüsüdür. O, hər hansı klassik Azərbaycan

xalça elementini ayıra bilir və müstəqil bir bütövlükdə təşkil edə bilirdi. Eyni zamanda, Lətif Kərimov, ənənəvi əsaslara görə, yalnız özünə xas olan imzası ilə, sadə, bütöv bir quruluşa, fikrin əhəmiyyətini ortaya qoyan rəngarəng təsvirli unikal xalçalar yaradırdı. Görkəmli rəssam simvolikanı virtuoz ustalıqla açırdı. “Əfşan”, “Xətai”, “Xətai sayağı” və digər xalçalar belə yarandı və dünyaya tanındı. Onun qavrayışı həm də mənalı bir quruluş nümunəsini dərk etməkdən ibarət idi. Məsələn, gizli bir quruluş planı dörd hissədən ibarət olan “Bahar”, “Yeni bahar” “Dörd fəsil” klassik xalça kompozisiyadan gəlir (qədim əkinçilik simvolikası): mərkəzi medalyon günəş təsviri ilə dörd fazanı-fəsilləri təmsil edir (şək.1). Həmçinin, Lətif Kərimov xalçaların ornamentikasının yenilənməsində də çox böyük rol oynamışdır. Sənətkar Azərbaycan xalqının misilsiz irsindən məharətlə istifadə edərək, yeni ornament kompozisiyaların yeni üslub həllini davamlı olaraq, yaradıcılıq axtarışlarında axtarırdı: “Araz”, “Yeni xalça”, “Qızıl xalça”, “Pambıqnaxış”, “Göy-göl”, “Ləçək turunc”.



*Şək.1. Lətif Kərimov “Bahar”, 1967*

Şuşada olduqca çox xalçatoxuyan qadın var idi. Demək olar ki, hər evdə bir neçə dəzgah var idi. Xalçalar yüksək qiymətləndirilirdi, hərçənd onları nadir hallarda satırdılar. Məhz böyük sənətkarın nəsli – bütün «Allahverənlər» tayfası toxuduqları qəşəng xalçaları ilə Qarabağ mahalında məşhur olmuşdur. 1912-ci ildə onların ailəsi İranın Məşhəd şəhərinə köçmüşdür. Xalça sənətinə məhəbbəti Lətifi burada Mirzə Ələkbər Hüseynzadənin emalatxanasına gətirib çıxarmışdır. Gənc Lətif Təbriz, Ərdəbil kimi məşhur xalça mərkəzlərini gəzib, hər sənətkardan, hər toxucudan bir təkrarsız ilmə vurmaq, bir naxış salmaq öyrənmişdir. Şuşa şəhərində «Qarabağxalça» artelində 1928-ci ildə təlimatçı kimi fəaliyyət göstərən Lətif Kərimov, başqa rayonlarda da yerli xalçatoxuma işinin sirlərini öyrənirdi. O, 1930-cu ildən xalça sənəti mütəxəssisi kimi «Azərbaycanxalça» birliyində rəssam-təlimatçı vəzifəsində fəaliyyət göstərmişdir. İlk dəfə olaraq Bakıda və Qubada (1932−1936-cı illər) xalça məktəblərinin açılmasında Lətif Kərimovun böyük zəhməti olmuşdur. Lətif Kərimov təkcə xalçaçılıq sahəsində

deyil, dekorativ tətbiqi sənətin başqa sahələrində də fəaliyyət göstərmişdir. O, kitab qrafikasının gözəl nümunələrinin, nəfis zərgərlik əşyalarının, parça ornamentlərinin, çini qabların, memarlıq ansambllarının dekorativ tərtibatının yaradılmasında mühüm rol oynamışdır [3].

1930–1940-cı illər Lətif Kərimovun yaradıcılığında xüsusi yer tutur. Bu illərdə yaratdığı bədii təptibatlarda və başqa sahələrdə Şərqin bədii sənət xəzinəsindən ilham almış ustad əlinin izlərini görürük. Lətif Kərimovun xalçaları həmin illərdən başlayaraq artıq Azərbaycandan uzaqlarda da böyük rəğbətlə qarşılanırdı.

Böyük sənətkar xalq ənənələrinin dirçəlməsi, inkişafı və zənginləşməsində rolu olduqca böyükdür. Lətif Kərimov xalçaçılıq sənətinin baçlıca bədii istiqamətlərini, onların üslub xüsusiyyətlərini müəyyən etmiş, Azərbaycan xalçalarının dəqiq təsnifatını vermişdir ki, bu da onun "Azərbaycan xalçası" üççildlik fundamental kitabında öz əksini tapmışdır. Azərbaycan xalçalarını uzun müddət Şərq xalçalarının ümumi kütləsindən ayırmır və ya onları "Qafqaz xalçası" termini ilə müəyyən edirdilər. Lətif Kərimovun elmi araşdırmaları bu inciləri vətənə qaytardı, sübut etdi ki, dünya muzeylərində "Qafqaz xalçaları" adlandırılan xalçaların azı doxsan faizi Azərbaycan xalçalarıdır [4].

O, min illərdən başlayaraq Azərbaycan xalçalarının müxtəlif növlərinə aid kompozisiya və naxışları toplanmış və beləliklə Quba, Şirvan, Bakı, Qazax, Gəncə, Qarabağ, Naxçıvan, Təbriz, Borçalı və s. xalça qruplarına daxil olan 150-dən artıq xovlu və xovsuz xalça məmulatı çeşidlərini yığıb, onların rəngli reproduksiyasını hazırlamışdır. Lətif Kərimovun eskizləri əsasında toxunmuş "Əfşan" (1932-ci il), "Qonaqkənd" (1939-cu il), "Ləçəkturunc" ( 1952-ci il), " Şuşa" (1953-cü il), "Göygöl" (1958-ci il), "Qarabağ" (1960-cı il), "İslimi" (1964-cü il), "Butalı" (1965-ci il), "Bahar" (1966-1976-cı illər), "Heyvanlar aləmində" (1969-cu il), "Şəbi-Hicran" (1975-ci il), "Zərxara" (1977-ci il), "Firdovsi" (1934-cü il), "Səməd Vurğun" (1956-cı il), "Vaqif" (1967-ci il), "Füzuli" (1972-ci il), "Nəsimi" (1974-cü il), "Səfiəddin urməvi" (1975-ci il), "Əcəmi" (1976-cı il) və s. xalçaları Azərbaycan xalçaçılıq sənətinin qiymətli nümunələrindəndir [3]. Böyük sənətkar "Ən sevimli xalçanız hansıdır?" sualına belə cavab vermişdir: "Özümün yaratdığım bütün xalçalar mənim üçün əzizdir". Bəli, xalça onun həyatının mənasına çevrilmişdi. Toxuduğu xalçalar ona övladı qədər əziz idi.

Lətif Kərimov tanınmış rəssamlarımız (K.Kazımzadə, İ.Axundov və başqaları) ilə birlikdə 1940–1941-ci illərdə dahi Azərbaycan şairi Nizami Gəncəvinin yubileyinə həsr edilmiş beş xalça hazırlamışdır. Bu xalçalarda şairin «Xəmsə»sinə daxil olan poemalardan götürülmüş epizodlar təsvir edilmişdir. Lətif Kərimovun yaradıcılığında ornamental xalçalar da mühüm yer tutur. Elmi-yaradıcılıq fəaliyyətinə Azərbaycan SSRİ EA-nın Memarlıq və İncəsənət institutunda başlayan Lətif Kərimov 1945-ci ildə ayrıca xalça şöbəsinin açılmasına nail olmuşdur. Onun «Azərbaycan xalçalarında ornament» kitabı xalçalarımızdakı naxışların, ornamentlərin öyrənilməsi baxımından misilsiz əhəmiyyətə malikdir. Böyük elmi əhəmiyyəti olan bu əsərə görə 1950-ci ildə Lətif Kərimova Leninqrad (indiki Sankt-Peterburq) şəhərində sənətşünaslıq namizədi-alimlik dərəcəsi verilmişdir. Onun monumental tədqiqat işlərindən biri də çoxcildli «Azərbaycan xalçası» monoqrafiyasıdır.

Birinci cildi 1961-ci ildə dərc edilən monoqrafiya qırx ilə yaxın aparılan elmi işlərin bəhrəsidir. Azərbaycan xalça sənətinin elm sahəsi kimi öyrənilməsi və peşəkar xalçaçı rəssamların yetişdirilməsi məhz onun adı ilə bağlıdır. Həm tələbkar, həm də mərhəmətli müəllim olub.

O, təkcə xalçaçılıq sahəsində deyil, dekorativ tətbiqi sənətin başqa sahələrində də fəaliyyət göstərib. Görkəmli sənətkar Azərbaycan xalçalarına əsl mənada ikinci ömür verdi, bir çox unudulmuş milli ornament növlərini və kompozisiyalarını bərpa etmişdir. Azərbaycan xalçasının nüfuzunu yenidən yüksəklərə qaldırdı.

Dünya yenidən bu xalçanı gördü, ona Lətif Kərimovun gözləri ilə nəzər saldı. Böyük sənətkarın təşəbbüsü ilə 1967-ci ildə Azərbaycan Xalça Muzeyinin əsası qoyulub. 26 il sonra isə muzeyə milli mədəniyyət və incəsənətinin görkəmli xadimi Lətif Kərimovun adı verilmişdir.

Beləliklə, görkəmli xalçaşünas, alim Lətif Kərimov "Azərbaycan xalçası" adlı üçcildliyi Azərbaycan xalçasının ensiklopediyasıdır. Lətif Kərimov Azərbaycan xalça sənətinin inkişaf genezisini izləyərək, ilk dəfə olaraq, xalça növlərinin dəqiq təsnifatını vermiş, sırf Azərbaycan xalçalarını digər xalqların xalçalarından fərqləndirmişdir. Azərbaycan xalçaçılıq sənəti YUNESKO-nun "Bəşəriyyətin qeyri-maddi mədəni irsinin reprezentativ siyahısı"na daxil edilmişdir.

## ƏDƏBİYYAT

1. Tahirov K. Azərbaycan xalçası. Biblioqrafiya. M.F. Axundov ad. Milli Kitabxana, 2012
2. Əliyeva K. Lətif Kərimov. Xalça sənəti. Bakı: Sərvət, 2013, 104 s.
3. Məmmədova L. Azərbaycan xalçaçılıq sənəti. Naxçıvan: Əcəmi, 2019, 168 s.
4. Təğıyeva R. Azərbaycan xalçası. Bakı: Şərq-Dizayn, 1999

***Naxçıvan Dövlət Universiteti***
***E-mail:lemanmamedovaa@mail.ru***
***E-mail: memmedovametanet377@gmail.com***

**Leman Mamedova, Metanet Mamedova**

## AN ARTIST'S LIFE IMMORTALIZED IN CARPETS

The article shows the main trens in the work of the outstanding Azerbaijan carpet weaver, known for his contribution to both to carpet weaving and his contribution to various other branches of art. Ancient, traditional, unique carpet art, which occupies a special place in Azerbaijan culture, is a national treasure of our people. A carpet is a work of art passed down from generation to generation, and here each pattern, each ornament has its own (artistic, philosophical, aesthetic, etc.) meaning. In the formation of the art of carpet weaving, as a science, a brilliant artist, carpet weaver Latif Kerimov played an important role in its development. The artist, who devoted his whole life to this art, possessed all the subtleties and secrets of the art of carpet weaving. The great scientist left a huge amount of information about the carpet, collected throughout his life. Azerbaijan carpets are included in the UNESCO Intangible Cultural Heritage List.

**Keywords:** *carpet, Latif Kerimov, ornament, composition, pattern, folk art, carpet weaving, decorative motive*

**Ляман Мамедова, Метанет Мамедова**

## ЖИЗНЬ ХУДОЖНИКА УВЕКОВЕЧЕННАЯ В КОВРАХ

В статье показаны основные тенденции творчества выдающегося азербайджанского ковроткача, известного своим вкладом как в ковроткачество, так и вкладом в другие различные отрасли искусства. Древнее, традиционное, уникальное ковровое искусство, за-

нимающее особое место в сокровищнице азербайджанской культуре, является национальным достоянием нашего народа. Ковер - это произведение искусства, передаваемое из поколения в поколение, и здесь каждый узор, каждый орнамент имеет своё (художественное, философское, эстетическое и т.д.) значение. В формировании искусства ковроткачества, как наука гениальный художник, ковроткач Лятиф Керимов сыграл большую роль в его развитии. Художник, посвятивший всю свою жизнь этому искусству, владел всеми тонкостями и секретами искусства ковроткачества. Великий учёный оставил огромную информацию о ковре, собранную на протяжении всей жизни. Азербайджанские ковры включены в Список Нематериального Культурного Наследия ЮНЕСКО.

**Ключевые слова:** *ковёр, Лятиф Керимов, орнамент, композиция, узор, народное искусство, ковроткачество, декоративный мотив*

*(AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir)*

**Daxilolma: İlkin variant: 07.01.2021**
**Son variant: 24.02.2021**